# Əskər marşı









Heç zaman enməz millət ucaldan
Azadlığın üç rəng bayrağı
Düşmənə verməz bir parça torpaq
Enməz cəsur ordunun sancağı

Addımla əskər addımla əskər
Addımlarında şanlı zəfərlər
Sən qəhrəman yurdun əskərisən
Əzminlə açar nurlu Səhər

Var qəlbimizdə bu yurda məhəbbət
İlk sevgimiz, andımızdır Vətən
Düşmənlər etsə bu yurda xəyanət
Atəşlə susdurulacaq həmən